# “Qarabağ” ordenli şəhid leytenant

**44 günlük Vətən müharibəsinin minlərlə şəhidlərindən biri, leytenant Əsədov Emil Balaqardaş oğlu Salyan rayonunun Çuxanlı kəndində dünyaya göz açıb. Vətən müharibəsi başlayanda cəmi 22 yaşı olan və zabit paqonlarının qürurunu doyunca yaşamağa imkan tapmayan Emil də Qarabağ uğrunda atalarının yolunu davam etdirən oğullardan idi. Emilin atası da hərbçi olub. Balaqardaş Əsədov birinci Qarabağ savaşında iştirak edib. 1994-cü ildə ordudan tərxis olunaraq Yanğından Mühafizə Xidmətində işləməyə başlayıb. 2005-ci ildə yaş həddi ilə əlaqədar təqaüdə çıxıb. Anası Təranə xanım isə evdar qadındır.**

Emil Vətən müharibəsində tağım komandiri olaraq Hadrutun, Füzulinin, Qubadlının, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Döyüşlər zamanı  Ermənistan ordusunun canlı qüvvəsini və 14 texnikasını məhv edib, bir neçə dəfə silah yoldaşlarını mühasirədən çıxarıb, buna görə də "Qaya 11" ləqəbini qazanıb. Döyüşlər zamanı yaralanıb, hospitala təxliyə olunsa da, bir müddət sonra yenidən döyüş meydanına qayıdıb. Emil Əsədov noyabrın 8-də Xocavənd döyüşləri zamanı şəhid olub. Salyan rayonunda dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən Emil Əsədov ölümündən sonra “Qarabağ” ordeni, “Cəsur döyüşçü","Vətən uğrunda”, “Xocavəndin azad edilməsinə görə”, “Cəbrayılın azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunub.

Şəhid zabitin anası oğlu haqda qürurla bildirir ki, noyabrın 8-də gündüz dəfn etdik, gecə Qələbə müjdəsi eşitdik. Sevindik ki, balalarımızın qanı yerdə qalmadı. Biz onları çox çətinliklə böyütmüşdük. Bacısı Emiliya da Emil də çox savadlı və intizamlı şagird olublar. Emil çox istedadlı idi. Hərbi Liseyə qəbul olundu. Oğlum düz 7 il hərb sənətini oxumuşdu. Hərbi xidmətində o qədər intizamlı idi ki, imkan tapıb yeganə bacısının toy məclisində də iştirak edə bilməmişdi... Dostlarının dediyinə görə, Emil elə komandir olub ki, özü şəhid olsa da onun tağımından 35 nəfər əsgərin hamısı sağ-salamat qalıb.

Atası Balaqardaş Əsədov söyləyir ki, oğlu həmişə Vətən uğrunda şəhidlik zirvəsinə yüksəlməyin şərəfli olduğunu deyərdi. Xüsusi qeyd edirdi ki, döyüş meydanında



şəhid olmaq şərafətlidir. Amma mən plan qururdum ki, onu evləndirim, qismət olmadı... Emil şəhid olmasından 1 gün əvvəl, noyabr ayının 6-da evlə əlaqə saxladı. Tanımadığımız bir nəfər bizə zəng vuraraq Emildən nigaran qalmamağımızı deyəndə narahat olduq. Telefondakı tanımadığımız adamı sorğu-suala çəkdik. Bu vaxt Emil özü ratsiya ilə telefona qoşularaq döyüşdə olduğunu, ona mane olmamağımızı istədiyini deyəndə sakitləşdik.

2020-ci ildə  tarix yazan qəhrəman Ordumuz, əsgər və zabitlərimiz Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirdilər. Qanları ilə müqəddəs torpaqları azad edərək Qələbəyə imza atan şəhidlərimiz bizlərə ömür boyu haqqında danışacağımız dastan qoydular. Özlərini doğmalarının gələcəyi üçün fəda edən polad ürəkli mübarizlərimiz, Vətən sizi unutmayacaq.

Bəli, məhz Emil kimi qəhrəman, igid oğulların sayəsində Vətənin müqəddəs torpaqları azaddır.

***C.MÜŞFİQ***
***XQ***

Xalq qəzeti.- 2025.- 8 noyabr (№ 239).- S.14.